# Sadıqcan məktəbinin davamçısı

**Bakı Musiqi Akademiyasında Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin və Səid Rüstəmov adına 13 nömrəli uşaq musiqi məktəbinin təşkilatçılığı ilə Xalq artisti, professor, Sadıqcan məktəbinin davamçısı, görkəmli tarzən Ramiz Quliyevin 75 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbirdə tarzənin həyat və yaradıcılıq yolundan bəhs edən videoçarx təqdim olunub. Ekran əsərində sənətkarın müxtəlif illərdə dünyanın bir çox yerlərində və doğma yurdu Azərbaycanda iştirak etdiyi konsert tədbirləri, ölkə prezidentləri ulu öndər Heydər Əliyev və İlham Əliyevin tarzən haqqında söylədikləri dəyərli fikirlər yer alıb.**

Daha sonra bir-birindən fərqli ifalar səsləndirilib. Bu ifalar içərisində Səid Rüstəmovun "Oxu, tar", Cahangir Cahangirovun "Ana", Süleyman Ələsgərovun "Poema" və digər görkəmli şəxsiyyətlərin musiqiləri səsləndirilib. 13 nömrəli uşaq musiqi məktəbinin yetirməsinin tarda ifa etdiyi "Ana" mahnısı tamaşaçıları kövrəldib. Tarzən özü də çıxışında bu ifanın möhtəşəmliyi haqqında danışaraq duyğulanıb. Tarda məhz bu mahnını ifa etdiyi zaman bütün anaları düşündüyünü və təsirləndiyini deyib.

Sənətkar, həmçinin möhtəşəm tədbirin təşkil olunmasında Bakı Şəhər Mədəniyyət Baş İdarəsinə və tədbir iştirakçılarına xüsusi təşəkkürünü bildirib. Tarzən Ramiz Quliyev müxtəlif bəstəkarların yaradıcılıq xüsusiyyətlərini mahir ifaçılığın tələblərinə uyğun səviyyədə milli alətimiz üçün nota köçürülməsinə nail olub.



O, eyni zamanda, əvvəlki illərdə çap olunmuş "Tar ifaçılığı antalogiyası"na daxil olan 10 not məcmuəsinin müəllifidir.

***Fidan HÜQUQQIZI***

Xalq qəzeti.- 2022.- 23 dekabr.- S.14.